# Bu gün ölkəmiz üçün yeni dövr başlayır

**Dövlətimizin başçısı İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüşündə bir daha Azərbaycanın keçdiyi inkişaf yoluna diqqəti yönəldərək bildirmişdir ki, dayanıqlı inkişafa əminlik yaradan bütün amillər mövcuddur**



24 illik müstəqillik tarixinə malik olan Azərbaycan iqtisadi imkanlarını genişləndirməklə beynəlxalq mövqeyini möhkəmləndirmiş, dünya birliyinin fəal üzvünə çevrilmişdir. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında uğurlarımızdan bəhs edərkən bunların göydəndüşmə olmadığını, böyük səylərin, qətiyyətin sayəsində əldə edildiyini xüsusi vurğulayır. Cənab İlham Əliyev tarixi paralellər fonunda Azərbaycanın müstəqillik tarixində keçdiyi yolun düzgün təhlil edilməsini və gələcək nəsillərə olduğu kimi çatdırılmasını vacib məsələ kimi önə çəkir. Bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin ölkə gənclərinin bir qrupu ilə görüşündə də keçilən yola bir daha nəzər salındı, prioritetlər açıqlandı.

Sabitliyi hər bir inkişafın əsası kimi dəyərləndirən cənab İlham Əliyev müstəqilliyimizin ilk illərində Azərbaycanın hansı durumla üz-üzə qaldığını, dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin qazandığı uğurları bir daha diqqətə çatdırdı. Bu fakt hər zaman önə çəkilir ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində olub. Lakin müstəqilliyimizin ilk illərində ölkəmizdə xaos və anarxiyanın, özbaşınalığın hökm sürməsi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə səbəb olmuşdur. 1993-cü ildən ümummilli lider Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkədə sabitliyin və normal biznes mühitinin yaradılması bu tərəddüdlərin aradan qaldırılmasına stimul verdi. Ölkəmizə artan inamın göstəricisi kimi 1994-cü ilin sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalanmasını qeyd etmək kifayətdir. "Əsrin müqaviləsi" Azərbaycanın bugünkü inkişafının təməli oldu. Ölkəmizin malik olduğu təbii resurslarından səmərəli istifadənin vacibliyini bəyan edən ulu öndər Heydər Əliyev eyni zamanda dünya təcrübəsinə istinadən bu fikri də bildirirdi ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz.

Bir əsas məqamı da qeyd edək ki, "Əsrin müqaviləsi"nin imzalanmasından öncə ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişi imzalandı. Bu saziş Azərbaycanın hər bir sahədə inkişafını sürətləndirdi. Dövlətimiz bu addımı ilə eyni zamanda dünyaya sülh siyasətinə sadiq olduğunu bəyan etdi. Dövlət müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordunun formalaşdırılması, möhkəmləndirilməsi üçün mühüm addımlar atıldı. Atılan addımlar ulu öndər Heydər Əliyevin bu fikirləri böyük qətiyyətlə söyləməsinə əsas yaratdı: " Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu- respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Silahlı Qüvvələri vardır."

İqtisadi tərəqqi hər bir sahədə uğurlu addımların atılmasını təmin etdi. "Əsrin müqaviləsi" Azərbaycana investisiya axınını sürətləndirdi. Ölkəmiz qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin sayı günbəgün artdı və bu özünün imzalanan sazişlərdə aydın ifadəsini tapdı. Neftin Azərbaycan xalqının böyük sərvəti olduğunu bildirən ulu öndər Heydər Əliyev əldə olunan gəlirlərin səmərəli, düzgün istifadə edilməsini təmin etmək məqsədilə 1999-cu ildə Dövlət Neft Fondunun yaradılmasının zərurət olduğunu bildirdi. Bu da Ümummilli Liderin uzaqgörənliyindən qaynaqlanırdı. Dövlət Neft Fondu dövlət siyasətinin prioritetlərini müəyyənləşdirir. Fondun vəsaitləri hesabına həyata keçirilən sosial-iqtisadi layihələr ölkənin hərtərəfli inkişafını təmin edir.

Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi siyasi mövqeyinin daha da möhkəmlənməsinə stimul oldu. Bu gün Azərbaycana beynəlxalq baxışın hansı səviyyədə olduğunu təsdiqləyən əsas amillərdən biri ikitərəfli, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin yüksək səviyyədə qurulması, həmçinin beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul olunmasıdır. Məhz bu ilin dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə "Multikulturalizm ili" elan edilməsi də müxtəlif mədəniyyətlərin, dinlərin qovşağında yerləşən Azərbaycanın ölkələr, xalqlar arasında əməkdaşlıq körpüsü rolunu oynaması, uğurlu addımları ilə bu körpünü daha da möhkəmləndirməsidir.

Gənclərlə görüşündə dövlətimizin başçısı İlham Əliyev bildirmişdir: "... son 20 il inkişaf, sabitlik dövrü olmuşdur. Bu dövr ərzində Azərbaycan dünya miqyasında, bir daha demək istəyirəm ki, çox güclü dövlətə çevrilmişdir. Təsadüfi deyil ki, 155 ölkə bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına seçilməyimiz zamanı dəstəkləmişdir. Güclü iqtisadiyyat yaratmışıq, güclü sosial siyasət aparılır, güclü ordu qurmuşuq. Hətta beynəlxalq hesablamalarda Azərbaycan Ordusu dünya miqyasında 40 ən qüdrətli ordu sırasındadır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, bizim ordumuz güclü ordular sırasındadır. Mənim təhlilimi beynəlxalq qurumlar da təsdiqləyir."

Bu fakt hər zaman önə çəkilir ki, Azərbaycan ölkədə sabitliyin mövcudluğu fonunda malik olduğu enerji resurslarından səmərəli istifadə etmək imkanı qazanmışdır. Ölkəmizin beynəlxalq aləmdə təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınması da düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Uğurla başa çatan layihə növbəti layihənin gündəmə gətirilməsini bir zərurətə çevirir. Hazırda Azərbaycan öz enerji tələbatını yüksək səviyyədə ödəməklə yanaşı, dünyanın enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayır. Vaxtilə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərləri reallığa çevrilməklə yanaşı, artıq bu gün dünya "Cənub" qaz dəhlizindən bəhs edir. Cənab İlham Əliyev hər zaman çıxışlarında ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əhəmiyyətini önə çəkərək, bildirir ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarının və beynəlxalq aləmdə yeri və rolunun hansı səviyyədə olduğunu təsəvvür etmək çətin deyildi. Təbii ki, bu uğurlu addımlara yol açan ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində ölkədə sabitliyin yaradılması olmuşdur. Dövlətimizin başçısı İlham Əliyev görüşdə bu məqama da diqqət yönəltmişdir: "Biz bu illər ərzində enerji siyasətində tarixi layihələrə imza atdıq, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdik. Hazırda "Cənub" qaz dəhlizini icra edirik. Bu da bizim təşəbbüsümüzdür. Özü də 1994-cü ildə "Əsrin kontraktı" imzalananda əlbəttə ki, bizim iqtisadi və siyasi vəziyyətimiz indiki kimi deyildi. Bizə hər tərəfdən təzyiqlər göstərilirdi və o vaxt iqtisadiyyatımız demək olar ki, dağılmış vəziyyətdə idi. Ancaq Heydər Əliyevin güclü iradəsi, cəsarəti və gələcəyə olan baxışları bunu mümkün etmişdir. Biz bu illərdə iqtisadi şaxələndirmə ilə məşğul olmuşuq. Amma bu sahə ilə yenə də məşğul olmaq lazımdır. Ancaq bir çox məsələləri həll edə bilmişik. Azərbaycan indi kosmik dövlətə çevrilibdir. Elmin, təhsilin inkişafı, infrastruktur layihələrinin icrası - bütün bunlar ölkəmizi gücləndirir."

Azərbaycanın hər dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirməsi dayanıqlı inkişafa geniş yol açır. Dövlətimizin başçısı İlham Əliyevin hər bir çıxışında Azərbaycanın sabitlik diyarı kimi beynəlxalq aləmdə nüfuz qazanması xüsusi qeyd edilir. Bu gün dünyada cərəyan edən proseslərə, baş verən toqquşmalara, qarşıdurmalara diqqət yetirdikdə ölkəmizin sabit ölkə kimi nüfuzu daha aydın görünür və təqdir olunur. Buna əsas yaradan əsas amil təbii ki, həyata keçirilən siyasətin əsasında vətəndaş amilinin dayanmasıdır. İrəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi, xalq-iqtidar birliyi inkişafı daha da sürətləndirir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, ölkədə sabitlik olmasa, heç bir sosial-iqtisadi proqramın icrasından, uğurla həyata keçirilməsindən danışmaq qeyri-mümkündür. 1993-cü ildən, yəni ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlanan inkişafın təməlində məhz düzgün qurulan siyasət və gələcəyə hesablanmış inkişaf strategiyası dayanır. Məhz mövcud sabitlik, təhlükəsizlik şəraitində yaşayış ölkəyə investisiya axınının sürətlənməsinə təkan verdi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 180 milyard dollara çatıb. Xarici investisiyalar üstünlük təşkil edir. Cənab İlham Əliyev cari il üçün qarşıda duran vəzifələri açıqlayarkən, xarici investisiyaların həcminin artırılmasını mühüm məqsəd kimi qarşıya qoyub. Təbii ki, bu məqsədə əsas verən yenə də Azərbaycanın sabit ölkə olması, eyni zamanda iqtisadi imkanlarının genişliyidir. Cənab İlham Əliyev görüşdə bildirmişdir: " Hesab edirəm ki, bu gün ölkəmiz üçün yeni dövr başlayır. Əminəm ki, bu dövr də uğurlu olacaqdır. Bu, postneft dövrüdür. Postneft dövrü bizim hesablamalarımıza görə 2040-cı ildən sonra başlamalı idi. Ancaq neftin qiymətinin kəskin düşməsi nəticəsində artıq biz postneft dövründə yaşayırıq. Əlbəttə ki, iqtisadi sahədə ciddi islahatların aparılmasına çox böyük ehtiyac var. Bu islahatlar başlayıb və dərinləşəcək. Biz çalışmalıyıq və əminəm, buna nail olacağıq ki, Azərbaycan iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarından fərqlənməsin, o səviyyədə olsun. Çünki gərək bütün mexanizmlər, bütün meyarlar bu tələbləri ehtiva etsin."

Dövrün çağırışlarından biri kimi dövlətimizin başçısı İlham Əliyev iqtisadi inkişafın səviyyəsini kadr hazırlığına uyğunlaşdırmağı bildirir. Təhsilin, elmin və iqtisadiyyatın birliyinin yaradılması prioritet məsələdir. "Bizim çox güclü intellektual potensialımız var, coğrafi vəziyyətimiz çox əlverişlidir" söyləyən ölkə Prezidenti bildirmişdir ki, bu gün Azərbaycan tranzit ölkə kimi artıq dünya miqyasında böyük hörmətə malikdir: "Siz də yəqin izləyirsiniz ki, tranzit yollar artıq Azərbaycandan keçir. Digər üstünlüklərimiz var. Azərbaycanda savadlılıq 100 faizdir. Bu da bizim böyük sərvətimizdir. Ona görə mən ölkəmizin uğurlu inkişafına nəinki inanıram, əminəm ki, belə də olacaq."

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, qarşıdakı illərdə Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyiriksə, təbii ki, bu inam ölkəmizin malik olduğu imkanlara əsaslanır. Cənab İlham Əliyev gənclərin qarşıya qoyulan məqsədlərin gerçəkləşdirilməsi istiqamətində daha səylə çalışmalarının vacibliyini önə çəkərək bildirmişdir ki, gənclərin fəaliyyəti, baxışları, fikirləri gələcəkdə ölkəmiz üçün həlledici olacaq: "Əminəm ki, siz ölkənin inkişafında bundan sonra da öz dəyərli sözünüzü deyəcəksiniz."

**Yeganə Əliyeva,**
***"İki sahil"***